# Əsas məqsədimiz təhsilin keyfiyyət göstəricilərini yaxşılaşdırmaqdır



Ən kütləvi təhsil sahəsi olan ümumi təhsilin səviyyəsinin yüksəldilməsinə, tədrisin keyfiyyətinin daha da yaxşılaşdırılmasına çalışan Şabran rayonunun pedaqoji kollektivləri 2018-2019-cu dərs ilini müvəffəqiyyətlə başa çatdırmışlar. Ötən tədris ilinin yekunları və qarşıda duran vəzifələr barədə bir qədər geniş məlumat verən **Rayon Təhsil Şöbəsinin müdiri Emin Mövsümov** deyir: Arxada qalan dərs ilində rayonumuzda 20 tam orta, 17 ümumi orta, 10 ibtidai məktəb və 2 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərmişdir. Cəmi 47 ümumtəhsil məktəbində 9393 nəfər şagird təhsil almışdır ki, onların təlim-tərbiyəsi ilə 935 nəfər müəllim məşğul olmuşdur.

Ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətlərindən biri olaraq məktəbəhazırlıq diqqət mərkəzində saxlanılmışdır. 226 ibtidai sinif müəllimindən 121 nəfəri təlimlərə cəlb edilmiş, yeni məzmun və tədris materialları hazırlanaraq tətbiq edilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində tarixən məktəbəqədər təhsil müəssisələri olmayan yaşayış məntəqələrində, ucqar kəndlərdə də uşaqların məktəbəhazırlığı təmin edilmişdir.

Ötən dərs ilinin yekunlarına, xüsusən də buraxılış imtahanlarının nəticələrinə dair rayon təhsil şöbəsində təhlillər aparılmış və nəticələr müzakirə olunmuşdur. IX siniflər üzrə imtahana buraxılmış 692 nəfər şagirddən 679 nəfəri, XI buraxılış siniflərindən isə 515 nəfər şagirddən 513 nəfəri test imtahanlarında iştirak etmişdir. Fərdi təhsilə cəlb olunmuş XI sinif şagirdlərindən isə 2 nəfəri buraxılış imtahanlarından azad olmuşdur. Məlumat üçün bildiririk ki, 2019-cu ildə 9-cu sinfi bitirmiş 676 nəfər məzuna adi, 3 nəfərinə fərqlənmə, bununla yanaşı, XI sinfi bitirmiş 508 nəfərə adi, 4 nəfərə isə fərqlənmə attestatları verilmişdir.

Təhsil Nazirliyi tərəfindən təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son beş ildə ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərində davamlı artım dinamikası müşahidə edilir. 2019-cu ildə ali məktəblərin qəbul imtahanlarında iştirak etmək üçün ərizə vermiş 347 nəfər abituriyentdən 160 nəfəri tələbə adını qazanmışdır. Abituriyentlərin 289 nəfəri cari ilin məzunlarıdır ki, onlardan 143-ü ali məktəblərə qəbul olunub. Ali məktəblərə qəbul faizi bu il 49 faiz olmuşdur ki, bu da ötən illə müqayisədə 11% çoxdur. 4 nəfər məzun 600-dən yuxarı, 20 nəfər isə 500-600 arası bal toplamışdır. Rayon üzrə ən yüksək göstərici isə 670 bal olmuşdur. Eyni zamanda, T.Abbasov adına 1 nömrəli tam orta məktəbin “11 a” sinfinin 22 məzunundan 21-i ali məktəblərə qəbul olunmuşdur.

İstedadlı uşaqların aşkara çıxarılması məqsədilə rayon təhsil şöbəsi tərəfindən bütün rayon ümumtəhsil məktəblərinin cəlb olunduğu “Şabran Bilik Kuboku” intellektual yarışması artıq üçüncü ildir ki, keçirilir. Yarışmada fəallıqları ilə seçilən məktəblilər istedadlı şagirdlər bankına daxil edilərək zona və respublika yarışlarında iştirakları təmin edilir. Cari ildə Respublika fənn olimpiadaların rayon mərhələsində 251 nəfər şagird iştirak etmişdir ki, onlardan da 43 nəfəri zona mərhələsinə vəsiqə qazanmışdır. Fərəhləndirici haldır ki, Quba şəhərində keçirilmiş zona (yarımfinal) mərhələsində iştirakçılardan 4 nəfəri final mərhələsində iştirak etmək hüququ qazanmışdır. Olimpiadaların final mərhələsində isə biologiya fənni üzrə 3 nömrəli tam orta məktəbin şagirdi Nigar Səlimova III yerə çıxmış və olimpiadanın bürünc medalını almışdır.

Bu il 6-7-ci sinif şagirdləri arasında riyaziyyat (6-cı sinif), fizika, kimya, biologiya və informatika (7-ci sinif) fənləri üzrə keçirilmiş fənn müsabiqələrinin rayon mərhələsində 217 nəfər şagird iştirak etmişdir ki, onlardan 25 nəfəri respublika mərhələsinə vəsiqə qazanmışdır.

Ümummilli lider Heydər Əliyevin 96-cı ildönümü ilə əlaqədar keçirilmiş “Ən yaxşı təqdimat” müsabiqəsinin Respublika mərhələsində iştirak etmiş şəhər 4 nömrəli tam orta məktəbin şagirdi tərifnamə ilə təltif olunmuşdur. Rayon məktəbliləri arasında keçirilmiş “Ədəbiyyat biliciləri” müsabiqəsinin 2 nəfər qalibi Respublika mərhələsinin iştirakçısı olmuş, onların hər ikisi müsabiqədə tərifnamə almışdır.

“Müasir dövrdə ümumtəhsil məktəb şagirdlərinin tərbiyəolunma sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fəaliyyət Planına uyğun olaraq məktəblilərlə ölkəmizdə baş verən ictimai-siyasi və sosial hadisələrə, qazanılan nailiyyətlərə obyektiv münasibətin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun getdikcə artması və ölkəmizin regionda lider dövlətə çevrilməsi ölkəmizdə sosial-iqtisadi sahələr üzrə, o cümlədən təhsil sahəsində həyata keçirilən quruculuq işləri mövzusunda söhbətlər aparılmış, Tədbirlər Planına uyğun olaraq “Nəsimi ili”, Xalq Cümhuriyyəti mövzularında tədbirlər təşkil olunmuşdur. Məktəblilərin yaşadıqları ərazinin tarixi, coğrafiyası, bitki örtüyü haqqında məlumatlılıq səviyyəsinin artırılması məqsədilə onların rayonun tarixi məkanlarına ekskursiyaları təşkil olunmuş, “Şabran florası məktəblilərin təqdimatında” adlı təqdimat-sərgi müsabiqəsi keçirilmişdir.

Bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonun Uşaq-Gənclər İdman Şahmat məktəbinin yetirmələri respublika və beynəlxalq yarışlarda 13 qızıl, 28 gümüş, 37 bürünc medal qazanmışlar. Şabran Rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin şagirdləri “Fövqəladə hallar uşaqların gözü” ilə respublika müsabiqəsində 2-ci yerə, “Alovlu Qafqaz” uşaq və gənclərin beynəlxalq yaradıcılıq müsabiqəsində kiçik yaş qrupunda 1-ci yer, orta yaş qrupunda 2-ci yerə layiq görülmüşlər.

Sağlamlıq imkanları məhdud şəxslərin təhsili fəaliyyətimizin əsas prioritetlərindən birini təşkil edir. Təhsilin bütün pillələri üzrə sağlamlıq imkanları məhdud şəxslərin təhsilini digər həmyaşıdları ilə bərabər səviyyədə təmin etmək məqsədilə onların təhsili üçün maneəsiz mühit yaradılmışdır. Belə ki, 2018-2019-cu tədris ilində 29 şagird fərdi təhsilə cəlb edilmiş, onlardan 1 nəfər məzun olmuşdur. Rayon üzrə şagird sayında da müsbət dinamika müşahidə edilməkdədir. 2018-ci illə müqayisədə şagirdlərin sayı 9176 nəfərdən 9393 nəfərə çatmışdır.

Müəllimlərin işə qəbulu və yerdəyişməsi üzrə mərkəzləşdirilmiş müsabiqə mexanizmi rayon məktəblərinin ixtisaslı müəllim kadrlarına olan tələbatının ödənilməsinə son dərəcə müsbət təsir göstərmişdir. Keçən dərs ilində işə qəbul üzrə müsabiqədə iştirak etmiş 51 müəllim rayonun ümumtəhsil məktəblərində fəaliyyətə başlamışdır. Müəllimlərin diaqnostik qiymətləndirilməsi və əməkhaqqının əhəmiyyətli artımı, şəffaf və obyektiv müsabiqə yolu ilə işə qəbulu, bu istiqamətdə həyata keçirilən digər tədbirlər nəticəsində müəllim peşəsinə maraq əhəmiyyətli şəkildə artmışdır. Belə ki, 2018-2019-cu dərs ilində ali məktəbə qəbul olan məzunların 31 faizi müəllimlik ixtisasını seçmişdir.

Təhsil Nazirliyi tərəfindən yeni mərkəzləşdirilmiş müsabiqə mexanizmi tətbiq edilməklə, son 5 ildə rayonun ümumtəhsil məktəblərinə 8 nəfər direktor vəzifəsinə işə qəbul olunmuşdur.

Ümumi təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqəti artırmaq, təhsil işçilərinin bu barədə rəy və müraciətlərini öyrənmək, yaradıcı müəllim və məktəb rəhbərlərini aşkara çıxarmaq, qabaqcıl təcrübə nümunələrini təbliğ etmək məqsədi ilə pedaqoji mühazirələrin yüksək səviyyədə təşkili və keçirilməsi üçün rayon təhsil şöbəsində 1 aprel 2019-cu il tarixli əmr imzalanmışdır. Pedaqoji mühazirələrin keçirilməsi ilə əlaqədar təşkilat komitəsi yaradılmış və komitəyə 70 məruzə təqdim olunmuşdur. Təqdim olunmuş məruzələr məktəb direktorları, direktor müavinləri, praktik psixoloqlar, metodistlər, fənn müəllimləri və digər təhsil işçiləri tərəfindən işlənmişdir. Konfrans formasında keçirilmiş rayon mərhələsində məruzələrin innovativ xarakterə, ciddi təcrübi əhəmiyyətə malik 2-si, şəhər 1 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Şəfəq Fazilovanın və 2 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Xatirə Ağayevanın məruzələri təşkilat komitəsi üzvlərinin və bölmə rəhbərlərinin rəyi nəzərə alınmaqla seçilərək ölkə üzrə təşkilat komitəsinə təqdim olunmuşdur.

Məktəblərin və digər təhsil müəssisələrinin yeni dərs ilinə hazırlığı istiqamətində işlər başa çatdırılmışdır. Yeni dərs ilində rayonun ümumtəhsil məktəblərində 9567 şagird, o cümlədən 1-ci siniflərdə 875 şagird oxuyacaqdır. Onların təlim-tərbiyəsi ilə 937 müəllim məşğul olacaqdır. Müəllimlərin işə qəbulu üzrə müsabiqə vasitəsilə 37 ixtisaslı müəllim rayonun məktəblərinə təyinat almışdır.

Yeni dərs ilində əsas məqsədimiz “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq təhsilin keyfiyyət göstəricilərinə, əhatəliliyinə və rəqabət qabiliyyətliliyinə nail olmaqdan ibarətdir.

**Ziyafəddin BAYRAMOV,**
**“Respublika”.**